# MÖVSÜMLÜ IŞÇI ÜÇÜN VIZANIN RƏSMILƏŞDIRILMƏSI

İşə götürən mövsümlü işçiləri **altı aylıq** müddətə işə dəvət etmək hüququndadır. (6)

Mövsümlü işçilərin işə düzəlməsini həyata keçirən sahələr, Nazirlər Kabinetinin 25 iyun 2002-ci il tarixli "Mövsümlü xarakterli işlər haqqında qaydalar"la sadalanıb. https://likumi.lv/doc.php?id=64019

## İşə götürən:



**1.** vakansiyanı Dövlət məşğulluq agentliyinin vakansiyalar portalında qeydiyyatdan keçirməlidir.

**2.** **10 gündən** sonra **Vətəndaşlıq və miqrasiya məsələləri üzrə İdarənin (VMMİ)** istənilən ərazi şöbəsinə mövsümlü işçinin çağırılması üçün dəvətnaməni təsdiq etmək üçün getməlidir:

- **tərkibində aşağıdakı məlumatlar olan azad formada ərizəni vermək lazımdır:**
  - dəvət olunan xarici vətəndaş haqqında;
  - nəzərdə tutulan işə götürmə haqqında;
  - vergilər üzrə borcun olmaması haqqında;
  - onun təsdiqi ki, muzdlu işçi, lazım olduğu halda, yaşayış yeri ilə təmin olunacaqdır, qaldığı yerə görə ödəniş tənasüblü olacaqdır və əməyin ödənilməsindən avtomatik olaraq tutulmayacaqdır.
- dəvət haqqında ərizə verən işə götürənin nümayəndəsi etibarnaməni və şəxsiyyəti təsdiq edən sənədi təqdim etməlidir;
- əmək müqaviləsini və ya əmək müqaviləsinin lahiyəsini təqdim etməlidir;
- əmək müqaviləsində göstərilən əmək haqqı əvvəlki təqvim il üçün orta əmək haqqının miqdarına və ya, əgər mövsümlü işçi kənd təsərrüfatı, meşə təsərrüfatı və ya balıqçılıq sahəsində işləmək üçün dəvət olunursa müvafiq sahədə orta əmək haqqına uyğun olmalıdır;
- hər mövsümlü işçinin dəvət olunmasına görə dövlət rüsumunu ödəmək lazımdır.

**!** Dəvət haqqında ərizəni imzalayaraq işə götürən, vizanın tələb olunması üçün təqdim olunan sənədlərdə göstərilən məqsədin dəvət olunan xarici vətəndaşın girişi və qalması məqsədinə uyğunluğuna görə, müəyyən olunmuş müddətdə ölkədən çıxmasına görə məsuliyyəti öz üzərinə götürür, həmçinin lazım olduğunda xarici vətəndaşın tibbi xidməti, Latviyada qalması və yaşadığı ölkəyə qayıtması ilə əlaqədar xərclərin ödənilməsini təmin edir.

**3.** Dəvətnamə **beş iş günü** ərzində təsdiq olunur. (5)

## Mövsümlu işçi:



**1.** Dəvətnamə təsdiq olunandan sonra vizanın alınması barədə ərizəni vermək üçün Latviya Respublikasının diplomatik və konsulluq nümayəndəliyinə müraciət etməlidir.

**Əgər nəzərdə tutulan işə düzəltmə vaxtı:**

| | |
|---|---|
| 90 | **günü ötürsə – uzunmüddətli viza istənilir** |
| 0 | **ünü ötmürsə – vahid viza istənilir.** |

**2.** **Aşağıdakı sənədləri vermək lazımdır:**



- həqiqi səyahət sənədi
- viza haqqında doldurulmuş və imzalanmış anket-ərizə
- 6 aydan yuxarı olmayan rəngli şəkil (35 x 45 mm)
- həqiqi tibbi səyahət sığorta şəhadətnaməsinin surəti
- dövlət rüsumunun ödənilməsini təsdiq edən sənəd

Pilsonības un migrācijas lietu pārvalde

Eiropas Savienības Iekšējās drošības fonds